**Yalçın Rəfiyev: Bakı Qlobal Şəffaflıq Platforması iqlim prosesində maraqlı tərəflərin əməkdaşlığı üçün lazımi məkan olacaq**

Şəffaflıq iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq üçün əsas amildir. Bu gün Bakı Qlobal Şəffaflıq Platformasının yaradılması iqlim prosesində maraqlı tərəflərin, QHT-lərin əməkdaşlığı üçün lazımi məkan olacaq.

AZƏRTAC xəbər verir ki, bunu xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev "İqlim şəffaflığı sahəsində Yüksək səviyyəli dialoq"da deyib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının şəffaflığa böyük önəm verdiyini diqqətə çatdıran baş danışıqçı platformanın qarşılıqlı olaraq inam və etimadın yaradılması üçün hazırlandığını qeyd edib.

**AZƏRTAC
2024, 3 sentyabr**